AcademyGate Publishing
p-ISSN 2790-0029; e-ISSN 2790-0037

# ASSESSMENT OF THE NATIONAL SECURITY SITUATION IN THE REPUBLIC OF AZERBAIJAN AND ANALYSIS OF MODERN THREATS

**Nurlan Kazimli**[1]

**UDC:** 355.02(479.24):327.56:004.056
**LBC:** 66.2
**HoS:** 179
**doi**: 10.33864/2790-0037.2026.v7.i2.354-361

**Keywords:**

Political independence, Geopolitical transformations, National interests, Military power, International security

**Subject area:**

Social Sciences

**Research field:**

Political Science

## ABSTRACT

This article analyzes the current state of the national security system of the Republic of Azerbaijan against the background of modern geopolitical transformations and the nature of new threats facing the country. The priority of the state's national security strategy is not only to repel foreign military interventions, but also to create sustainable defense systems against asymmetric threats such as cyber operations, manipulative information warfare, economic pressure and ideological provocations aimed at disrupting internal stability.

The article examines the new geopolitical realities that have emerged in the South Caucasus, especially after the 44-day Patriotic War and the restoration of territorial integrity, and the impact of these factors on the national security architecture. Here, the strategic course implemented under the leadership of President Ilham Aliyev in the fields of military-political, economic and energy security, as well as the achievements of the alliance relations formalized by the Shusha Declaration, are analyzed.

The study systematizes the asymmetric challenges of the modern era - cyber threats, elements of hybrid warfare and disinformation campaigns. Economic sovereignty supports Azerbaijan's political independence and ability to make independent decisions. Although information conflicts and cyber threats are considered fundamental risks to national security in today's geopolitical realities, the legal and technical infrastructure created in the country, together with the strategic course implemented to ensure digital independence, ensure the successful overcoming of these difficulties. This assessment assesses the effectiveness of preventive security mechanisms applied to protect Azerbaijan's national interests at the global and regional levels.

[1] 2th year master's student,
Department of Political Science and Political Management, Academy of Public Administration under the President of the Republic of Azerbaijan; Baku, Azerbaijan
E-mail: kazimlinurik@gmail.com
https://orcid.org/0009-0007-5606-9401
**To cite this article:** Kazimli, N. [2026]. Assessment of the National Security Situation in the Republic of Azerbaijan and Analysis of Modern Threats. *History of Science journal*, *7*(2), pp.354-361.
https://doi.org/10.33864/2790-0037.2026.v7.i2.354-361

***Article history:***
*Received: 9 March 2026*
*Revised: 10 April 2026*
*Accepted: 1 June 2026*
*Published: 15 June 2026*

**Copyright: © 2026 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

# AZƏRBAYCAN RESPUBLİKASINDA MİLLİ TƏHLÜKƏSİZLİK VƏZİYYƏTİNİN QİYMƏTLƏNDİRİLMƏSİ VƏ MÜASİR TƏHDİDLƏRİN ANALİZİ

**Nurlan Kazımlı**[1]

**UOT:** 355.02(479.24):327.56:004.056
**KBT:** 66.2
**HoS:** 179
**doi:** 10.33864/2790-0037.2026.v7.i2.354-361

**Açar sözlər:**

Siyasi müstəqillik, Geosiyasi transformasiyalar, Milli maraqlar, Hərbi güc, Beynəlxalq təhlükəsizlik

**Sahə:**

İctimai elmlər

**Tədqiqat sahəsi:**

Siyasi Elmlər

## ANNOTASİYA

Məqalədə müasir geosiyasi transformasiyalar fonunda Azərbaycan Respublikasının milli təhlükəsizlik sisteminin mövcud vəziyyəti və ölkənin üzləşdiyi yeni növ təhdidlərin xarakteri analiz edilir. Dövlətin milli təhlükəsizlik strategiyasının prioriteti yalnız xarici hərbi müdaxilələrin dəf edilməsi ilə məhdudlaşmır; bura həm də daxili sabitliyə yönəlmiş kiberəməliyyatlar, manipulyativ informasiya müharibələri, iqtisadi təzyiqlər və ideoloji təxribatlar kimi asimmetrik təhlükələrə qarşı dayanıqlı müdafiə sistemlərinin qurulması daxildir.

Məqalədə xüsusilə 44 günlük Vətən müharibəsindən sonra Cənubi Qafqazda formalaşmış yeni geosiyasi reallıqlar, ərazi bütövlüyünün bərpası və bu amillərin milli təhlükəsizlik arxitekturasına təsiri araşdırılır. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən strateji kursun hərbi-siyasi, iqtisadi və enerji təhlükəsizliyi sahələrində qazandığı uğurlar, eləcə də Şuşa Bəyannaməsi ilə rəsmiləşən müttəfiqlik münasibətləri təhlil olunur.

Tədqiqat zamanı müasir dövrün asimmetrik çağırışları — kiber-təhdidlər, hibrid müharibə elementləri və dezinformasiya kampaniyaları sistemləşdirilir. Azərbaycanın siyasi müstəqilliyinin və sərbəst qərar qəbuletmə qabiliyyətinin təməlində onun iqtisadi suverenliyi dayanır. Hazırkı geosiyasi reallıqlarda informasiya qarşıdurması və kiber-təhdidlər milli təhlükəsizlik üçün prinsipial risklər hesab olunsa da, respublikada qurulmuş hüquqi-texniki infrastruktur və rəqəmsal müstəqilliyin təmini yönümündə həyata keçirilən strateji kurs bu növ çağırışların uğurla dəf edilməsini təmin edir. Nəticə olaraq, Azərbaycanın milli maraqlarının qlobal və regional səviyyədə qorunması üçün tətbiq olunan preventiv təhlükəsizlik mexanizmlərinin effektivliyi qiymətləndirilir.

[1] 2-ci kurs magistr tələbəsi,
Politologiya və siyasi idarəetmə kafedrası, Azərbaycan Respublikasının Prezidenti Yanında Dövlət İdarəçilik Akademiyası; Bakı, Azərbaycan
E-mail: kazimlinurik@gmail.com
https://orcid.org/0009-0007-5606-9401
**Məqaləyə istinad:** Kazımlı, N. [2026]. Azərbaycan Respublikasında Milli Təhlükəsizlik Vəziyyətinin Qiymətləndirilməsi və Müasir Təhdidlərin Analizi. *History of Science jurnalı*, *7*(2), səh.354-361.
https://doi.org/10.33864/2790-0037.2026.v7.i2.354-361

***Məqalənin tarixçəsi:***
*Daxil olub: 09.03.2026*
*Yenidən baxılıb: 10.04.2026*
*Təsdiqlənib: 01.06.2026*
*Dərc olunub: 15.06.2026*

**Copyright: © 2026 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

AcademyGate Publishing
p-ISSN 2790-0029; e-ISSN 2790-0037

# ОЦЕНКА СИТУАЦИИ В ОБЛАСТИ НАЦИОНАЛЬНОЙ БЕЗОПАСНОСТИ В АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКЕ И АНАЛИЗ СОВРЕМЕННЫХ УГРОЗ

**Нурлан Казимли**[1]

**УДК:** 355.02(479.24):327.56:004.056
**ББК:** 66.2
**HoS:** 179
**doi**: 10.33864/2790-0037.2026.v7.i2.354-361

**Ключевые слова:**

Политическая независимость, Геополитические преобразования, Национальные интересы, Военная мощь, Международная безопасность

**Область исследования:**

Социальные науки

**Научная область:**

Политология

## АННОТАЦИЯ

В статье анализируется текущее состояние системы национальной безопасности Азербайджанской Республики на фоне современных геополитических трансформаций и характера новых типов угроз, стоящих перед страной. Приоритетом государственной стратегии национальной безопасности является не только отражение внешних военных интервенций; оно также включает создание устойчивых систем обороны против асимметричных угроз, таких как кибер-операции, направленные на подрыв внутренней стабильности, манипулятивные информационные войны, экономическое давление и идеологические провокации.

В статье рассматриваются новые геополитические реалии, сформировавшиеся на Южном Кавказе, особенно после 44-дневной Отечественной войны, восстановления территориальной целостности и влияния этих факторов на архитектуру национальной безопасности. Анализируются успехи, достигнутые стратегическим курсом, реализованным под руководством Президента Ильхама Алиева в области военно-политической, экономической и энергетической безопасности, а также союзнические отношения, формализованные Шушской декларацией. В исследовании систематизируются асимметричные вызовы современной эпохи – киберугрозы, элементы гибридной войны и дезинформационные кампании. Основой политической независимости Азербайджана и его способности принимать самостоятельные решения является экономический суверенитет. Хотя информационные конфликты и киберугрозы считаются фундаментальными рисками для национальной безопасности в современных геополитических реалиях, созданная в республике правовая и техническая инфраструктура и стратегический курс, проводимый в направлении обеспечения цифровой независимости, гарантируют успешное преодоление этих вызовов. В результате оценивается эффективность превентивных механизмов безопасности, применяемых для защиты национальных интересов Азербайджана на глобальном и региональном уровнях.

[1] Студент 2 курса магистратуры,
Факультет политологии и политического управления, Академия государственного управления при Президенте Азербайджанской Республики; Баку, Азербайджан
E-mail: kazimlinurik@gmail.com
https://orcid.org/0009-0007-5606-9401

**Цитировать статью:** Казимли, Н. [2026]. Оценка Ситуации в Области Национальной Безопасности в Азербайджанской Республике и Анализ Современных Угроз. *Журнал History of Science, 7*(2), с.354-361.
https://doi.org/10.33864/2790-0037.2026.v7.i2.354-361

***История статьи:***
*Поступила: 09.03.2026*
*Переработана: 10.04.2026*
*Принята: 01.06.2026*
*Опубликована: 15.06.2026*

**Copyright: © 2026 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

## 1.Giriş

Müasir beynəlxalq münasibətlər sisteminin transformasiyası, qlobal güc mərkəzləri arasındakı rəqabətin kəskinləşməsi və hibrid xarakterli təhdidlərin artması fonunda milli təhlükəsizlik məsələləri hər bir suveren dövlət üçün strateji prioritetə çevrilmişdir. XXI əsrin üçüncü onilliyində təhlükəsizlik anlayışı artıq yalnız hərbi güclə məhdudlaşmır; o, iqtisadi dayanıqlıq, enerji marşrutlarının qorunması, informasiya mühitinin toxunulmazlığı və ekoloji tarazlıq kimi fundamental komponentləri özündə birləşdirən kompleks bir struktur kəsb edir.

Cənubi Qafqazın lider dövləti olan Azərbaycan Respublikası üçün bu məsələ xüsusi əhəmiyyət kəsb edir, çünki ölkəmiz mürəkkəb geosiyasi coğrafiyada – Şərqlə Qərbin, Şimalla Cənubun kəsişməsində yerləşməklə yanaşı, həm də qlobal enerji və nəqliyyat dəhlizlərinin əsas qovşağı rolunu oynayır [Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 2007].

Azərbaycanın milli təhlükəsizlik arxitekturası 2020-ci ilin payızında baş vermiş 44 günlük Vətən müharibəsindən sonra keyfiyyətcə yeni bir mərhələyə qədəm qoymuşdur. Otuz ilə yaxın davam edən Ermənistanın işğalçılıq siyasətinə son qoyulması, ölkənin ərazi bütövlüyünün və dövlət sərhədlərinin tam bərpası Azərbaycanın təhlükəsizlik mühitindəki ən böyük “ekzistensial təhdidi” aradan qaldırmışdır [Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 2023].

## 2.Materiallar və tədqiqat metodları

Milli təhlükəsizliyin təmin olunması prosesində dövlətin qarşısında duran əsas vəzifələr təkcə hərbi təcavüzün qarşısını almaq deyil, həm də dövlətin daxili sabitliyini sarsıda biləcək asimmetrik təhdidlərə – kiberhücumlara, dezinformasiya kampaniyalarına, iqtisadi sanksiyalara və ideoloji diversiyalara qarşı effektiv müqavimət mexanizmləri formalaşdırmaqdır. Xüsusilə “Ağıllı güc” konsepsiyasının tətbiqi, hərbi potensialın diplomatik uğurlarla uzlaşdırılması Azərbaycanın xarici siyasətinin və təhlükəsizlik doktrinasının nüvəsini təşkil edir. Türkiyə Respublikası ilə imzalanmış Şuşa Bəyannaməsi isə bu təhlükəsizlik sistemini regional çərçivədən çıxararaq beynəlxalq strateji müttəfiqlik səviyyəsinə qaldırmışdır [Hüseynov, 2020, s.258-262].

Prezident İlham Əliyevin rəhbərliyi dövründə milli təhlükəsizlik sistemi lokal çərçivədən çıxaraq qlobal çağırışlara cavab verən rəqabətədavamlı struktura çevrilmişdir. Bu dövrün ən mühüm hüquqi-siyasi sənədi 23 may 2007-ci il tarixdə təsdiq edilmiş “Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyası”dır. Bu konsepsiya Azərbaycanın milli təhlükəsizlik mühitini təyin edən əsas sənəd kimi aşağıdakı strateji hədəfləri müəyyənləşdirdi:

1. Ərazi bütövlüyünün bərpası: Sənəddə Azərbaycanın əsas təhlükəsizlik problemi kimi torpaqların işğalı və separatizm xüsusi qeyd.
2. Enerji təhlükəsizliyi: Azərbaycanın Avropanın enerji xəritəsindəki rolu milli təhlükəsizliyin ayrılmaz tərkib hissəsi kimi təsbit edildi.
3. Avratlantik məkana inteqrasiya: Beynəlxalq təhlükəsizlik sistemləri ilə qarşılıqlı əməkdaşlıq prioriteti müəyyən olundu [Azərbaycan Respublikasının Qanunu, 1999].

## 3.Təhlil

Milli təhlükəsizlik sisteminin hüquqi bazası dövlətin bu sahədəki strategiyasını, fəaliyyət prinsiplərini və səlahiyyət bölgüsünü rəsmiləşdirən iyerarxik normativ-hüquqi aktlar toplusudur. Azərbaycan Respublikasında bu hüquqi bazanı konstitusiya və digər əlaqəli normativ sənədlər təşkil edir. Azərbaycan Respublikasının Konstitusiyası milli təhlükəsizliyin təminatının ali siyasi və hüquqi dayağıdır.

Konstitusiyanın 2-ci maddəsi xalqın suverenliyini, 11-ci maddəsi isə Azərbaycan Respublikasının ərazisinin bütövlüyünü, toxunulmazlığını və bölünməzliyini təsbit edir.

2020-ci il Vətən müharibəsi və 2023-cü il lokal xarakterli antiterror tədbirlərindən sonra bu maddənin hərfi mənası tam bərpa edilmişdir. Bu, milli təhlükəsizlik sisteminin hərbi təhdidlərdən azad, sabit və rifahlı həyat təmin etmək öhdəliyini hüquqi müstəvidə təsbit edir. Milli təhlükəsizlik vəziyyəti həmçinin milli təhlükəsizliyin təmin olunması istiqamətində qanunvericilikdən danışılırsa hərbi doktrinanın qeyd olunmaması səmərəli olmazdı. Hərbi Doktrina xarici hərbi təhdidlərə qarşı dövlətin mövqeyini, hərbi qüvvənin tətbiqi şərtlərini və Azərbaycan Respublikasının silahlı qüvvələrin quruluş prinsipləri və mexanizmlərini müəyyənləşdirən xüsusi bir sənəddir. Bu, 2020 və 2023-cü illərdə həyata keçirilmiş qanuni əməliyyatların hüquqi bazasıdır [Azərbaycan Respublikasının Konstitusiyası, 1995].

Hərbi təhlükəsizlik Azərbaycanın milli təhlükəsizlik sisteminin onurğa sütununu təşkil edir. Bu istiqamət dövlətin suverenliyini, ərazi bütövlüyünü və sərhədlərinin toxunulmazlığını hərbi güc vasitəsilə təmin etmək imkanlarını özündə birləşdirir. 2020-ci il Vətən müharibəsindən sonra Azərbaycanın hərbi doktrinası “passiv müdafiə” modelindən “aktiv çəkindirmə və preventiv zərbə” modelinə keçid etmişdir.

Azərbaycan Silahlı Qüvvələrinin struktur islahatlarında ən mühüm məqam Türkiyə Silahlı Qüvvələrinin təşkilati modelinə keçiddir. Bu model çərçivəsində qoşun növləri arasında koordinasiyanın operativliyini artırmaq üçün rəqəmsal idarəetmə sistemləri tətbiq olunur.Müasir hərbi təhlükəsizlik artıq yalnız canlı qüvvənin sayı ilə deyil, texnoloji üstünlüklə müəyyən edilir. Azərbaycan bu sahədə regionda lider mövqedədir. “Bayraktar TB2”, “Akinci”, həmçinin müxtəlif növ kamikadze dronlar (Harop və.s) ordunun zərbə gücünü artırmaqla yanaşı, kəşfiyyat imkanlarını da genişləndirib. Ölkənin hava məkanı ən müasir “S-300 PMU2”, “Barak-8” və digər raket sistemləri ilə qorunur ki, bu da kritik infrastrukturun (neft-qaz kəmərləri, bəndlər) təhlükəsizliyi üçün həyati əhəmiyyət kəsb edir [Azərbaycan Respublikası Milli Məclisinin Qərarı, 2010; Azərbaycan Respublikasının Qanunu, 1999].

***3.1.Enerji və iqtisadi təhlükəsizlik***

İqtisadi təhlükəsizlik dövlətin daxili və xarici təsirlərdən asılı olmayaraq öz iqtisadi maraqlarını qorumaq, əhalinin rifahını təmin etmək və ordunun maddi ehtiyaclarını qarşılamaq qabiliyyətidir. Ölkəmiz artıq yalnız neft ixracatçısı deyil, həm də Avropanın enerji xəritəsini dəyişən strateji qaz təchizatçısıdır. Belə ki, Şahdəniz-2 yatağından çıxarılan qazın TANAP və TAP kəmərləri vasitəsilə Avropaya çatdırılması Azərbaycanın beynəlxalq təhlükəsizlikdəki rolunu vazkeçilməz edir. Bu, ölkəyə qarşı ola biləcək siyasi təzyiqləri neytrallaşdıran mühüm faktordur. Həmçinin, 2022-ci ildə imzalanmış “Enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu”na əsasən, Azərbaycanın Avropaya qaz ixracını ikiqat artırması hədəflənir [Həsənov, 2011].

Eyni zamanda Xəzər dənizinin külək enerjisi potensialının Qara dəniz sualtı kabeli vasitəsilə Avropaya nəqli layihəsi Azərbaycanın gələcək enerji təhlükəsizliyi arxitekturasının yeni mərhələsidir.İqtisadi təhlükəsizlik həm də ölkənin beynəlxalq tranzit qovşağına çevrilməsindən asılıdır. “Orta Dəhliz” (Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu) Azərbaycanın iqtisadi suverenliyini gücləndirən əsas amillərdən biridir. Bakı-Tbilisi-Qars dəmir yolu Şərqlə Qərbi birləşdirən bu xətt Azərbaycanı regionun logistik mərkəzinə çevirib. Bakı Beynəlxalq Dəniz Ticarət Limanı - Ələt qəsəbəsində yerləşən bu liman yükaşırma qabiliyyəti ilə ölkənin iqtisadi təhlükəsizliyini təmin edən kritik infrastruktur obyektidir. Qeyd edilənlərlə yanaşı Tripp layihəsi çərçivəsində Zəngəzur dəhlizinin açılması Azərbaycanın Naxçıvan və Türkiyə ilə birbaşa quru əlaqəsini təmin etməklə yanaşı, həm də ölkənin hərbi-strateji və iqtisadi təhlükəsizliyinə böyük töhfə verəcəkdir [Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 2022; Adigözəlov, 2025, s.1,7].

### *3.2.Müasir təhdidlərin transformasiyası: kiber-təhdidlər, hibrid müharibə və informasiya təhlükəsizliyinə yönələn təhdidlər*

Qlobal texnoloji inkişaf və rəqəmsallaşma dövlətlərin idarəetmə sistemlərini asanlaşdırsa da, eyni zamanda onları yeni növ təhdidlərə qarşı həssas etmişdir. Azərbaycan üçün bu təhdidlər həm regional rəqabət, həm də qlobal kiber-cinayətkarlıq kontekstində xüsusi əhəmiyyət kəsb edir. Kiber-təhdidlər milli təhlükəsizliyin ən texniki və sürətlə dəyişən sahəsidir. Azərbaycanın rəqəmsal suverenliyinə yönələn əsas risklər aşağıdakılardır:

1. *Kiber-casusluq:* Dövlət sirlərinin, hərbi planların və diplomatik yazışmaların ələ keçirilməsi məqsədilə edilən hücumlar.
2. *Kritik infrastruktura yönələn hücumlar:* Enerji şəbəkələri, su təchizatı sistemləri, bank sektoru və nəqliyyatın idarə edilməsi mərkəzlərinə yönələn kiber-təxribatlar. Həmçinin, dövlət və özəl sektorun məlumat bazalarının şifrələnərək iflic edilməsi [Ağalarlı, 2020; Milli.az, 2025].

Azərbaycanda dövlət səviyyəsində qurulan kiber-müdafiə sistemləri dövlət sirlərinin və fərdi məlumatların sızmasının qarşısını alır. Dövlət başçısının tapşırığı ilə yerli proqram təminatının inkişaf etdirilməsi və rəqəmsal idarəetmədə kənar asılılığın azaldılması strateji təhlükəsizlik prioriteti kimi müəyyən edilmişdir [Azərbaycan Respublikasının Qanunu, 1998].

Hibrid müharibə – hərbi güclə yanaşı, dezinformasiya, kiber-hücum və iqtisadi təzyiqlərin vahid mərkəzdən idarə olunmasıdır. Hibrid müharibə çərçivəsində informasiya təhlükəsizliyinə yönəlmiş təhdidlər sırasında aşağıdakıları qeyd etmək olar: informasiya manipulyasiyası, psixoloji əməliyyatlar, informasiyaının qəbulu zamanı onun real olub olmaması ilə bağlı qeyri-müəyyənlik şəraitinin yaradılması və s. [Qasımov, 2015].

## 4.Nəticə

"Azərbaycan Respublikasında milli təhlükəsizlik vəziyyətinin qiymətləndirilməsi və müasir təhdidlərin analizi" mövzusunda aparılan tədqiqat göstərir ki, ölkəmizin milli təhlükəsizlik sistemi son illərdə keyfiyyətcə yeni və daha mütəşəkkil bir mərhələyə qədəm qoymuşdur. Bu inkişafın mərkəzində dayanan əsas amil Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin uzaqgörən, milli maraqlara söykənən və müasir çağırışlara çevik reaksiya verən strateji idarəçilik kursudur.44 günlük Vətən müharibəsi və antiterror tədbirləri nəticəsində Azərbaycan öz ərazi bütövlüyünü tam bərpa etməklə, onilliklər boyu milli təhlükəsizliyimiz üçün əsas "ekzistensial təhdid" olan işğal faktorunu aradan qaldırmışdır.

Dövlət başçısının rəhbərliyi ilə həyata keçirilən ordu quruculuğu, Türkiyə modeli əsasında yaradılan yeni qoşun növləri və yüksək texnologiyalı silahlanma Azərbaycanın hərbi təhlükəsizliyini sarsılmaz etmişdir. Azərbaycanın enerji diplomatiyası və "Orta Dəhliz" kimi nəhəng nəqliyyat layihələrinin mərkəzində yer alması, iqtisadi təhlükəsizliyimizi xarici təzyiqlərdən qoruyan strateji bir "qalxan" rolunu oynayır. Bu gün Azərbaycanın iqtisadi müstəqilliyi onun siyasi iradəsinin sərbəstliyini təmin edən ən mühüm amildir.

Analizlər göstərir ki, müasir dövrdə kiber-təhdidlər və informasiya müharibəsi ən ciddi risklər sırasındadır. Lakin Azərbaycan dövlətinin kiber-təhlükəsizlik sahəsində formalaşdırdığı hüquqi və texniki baza, eləcə də rəqəmsal suverenliyin qorunması istiqamətində atılan addımlar bu təhdidlərin effektiv şəkildə neytrallaşdırılmasına imkan verir.

## 5.REFERENCES


1. Decree of the President of the Republic of Azerbaijan. (2007). *National Security Concept of the Republic of Azerbaijan*. Baku. Retrieved from https://e-qanun.az/framework/13373 (in Azerbaijani)
2. Resolution of the National Assembly of the Republic of Azerbaijan. (2010). *Military Doctrine of the Republic of Azerbaijan*. Baku. Retrieved from https://e-qanun.az/framework/19722 (in Azerbaijani)
3. Law of the Republic of Azerbaijan. (1998). *On information, informatization and protection of information*. Retrieved from https://e-qanun.az/framework/3525 (in Azerbaijani)
4. Law of the Republic of Azerbaijan. (2021, June 16). *Shusha Declaration on Allied Relations between the Republic of Azerbaijan and the Republic of Turkiye*. Retrieved from https://e-qanun.az/framework/49147 (in Azerbaijani)
5. Law of the Republic of Azerbaijan. (1999). *On national security*. Retrieved from https://e-qanun.az/framework/5455 (in Azerbaijani)
6. Hasanov, A. (2011). *Fundamentals of the national development and security policy of the Republic of Azerbaijan*. Baku: Letterpress Publishing House, 350 p. (in Azerbaijani)
7. Gasimov, C. Y. (2015). *Theoretical foundations of national security*. Baku: Elm Publishing House, 407 p. (in Azerbaijani)
8. Aghalarli, D. (2020). Hybrid wars as a type of asymmetric warfare. *Ordu.az*. Retrieved from https://ordu.az/ru/news/173729/hibrid-muharibeler-%E2%80%93-asimmetrik-muharibelerin-novu-kimi (in Azerbaijani)
9. Milli.az. (2025). Cyber sovereignty in the 21st century: How Azerbaijan is building its digital defense. *Milli.Az*. Retrieved from https://news.milli.az/politics/1297451.html (in Azerbaijani)
10. Decree of the President of the Republic of Azerbaijan. (2022). *Strategy for the Socio-Economic Development of the Republic of Azerbaijan for 2022–2026*. Retrieved from https://e-qanun.az/framework/50013 (in Azerbaijani)
11. Adigozalov, S. (2025, July 23). *Zangezur Corridor: Economic integration and regional opportunities. Xalq Gazeti,* (150), 1, 7. Retrieved from https://xalqqazeti.az/az/siyaset/233587-zengezur-dehlizi-iqtisadi-inteqrasiya-regional (in Azerbaijani)
12. Huseynov, B. (2020, September 6). *Turkey is Azerbaijan's most important partner in the military sphere today*. Nizami District Executive Authority. Retrieved from http://www.nizami-ih.gov.az/az/news/857.html (in Azerbaijani)
13. Decree of the President of the Republic of Azerbaijan. (2023, August 28). *Strategy for Information Security and Cybersecurity of the Republic of Azerbaijan for 2023–2027*. Retrieved from https://e-qanun.az/framework/55045 (in Azerbaijani)
14. Wikipedia. (n.d.). *Second Karabakh War*. Wikipedia. Retrieved from https://az.wikipedia.org/wiki/%C4%B0kinci_Qaraba%C4%9F_m%C3%BCharib%C9%99si (in Azerbaijani)
15. Republic of Azerbaijan. (1995). *Constitution of the Republic of Azerbaijan*. Baku. Retrieved from https://e-qanun.az/framework/897 (in Azerbaijani)


## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. (2007). *Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyası.* Bakı. Alındı: https://e-qanun.az/framework/13373
2. Azərbaycan Respublikası Milli Məclisinin Qərarı. (2010). *Azərbaycan Respublikasının Hərbi Doktrinası*. (2010). Bakı. Alındı: https://e-qanun.az/framework/19722

3. Azərbaycan Respublikasının Qanunu. (1998). *İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında*. Azərbaycan Respublikasının Qanunu. Alındı: https://e-qanun.az/framework/3525
4. Azərbaycan Respublikasının Qanunu. (2021, 16 iyun). *Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi.* Alındı: https://e-qanun.az/framework/49147
5. Azərbaycan Respublikasının Qanunu. (1999). *Milli təhlükəsizlik haqqında*. Alındı: https://e-qanun.az/framework/5455
6. Həsənov, Ə. (2011). *Azərbaycan Respublikasının milli inkişaf və təhlükəsizlik siyasətinin əsasları*. Bakı: Letterpress nəşriyyatı, 350 s.
7. Qasımov, C. Y. (2015). *Milli təhlükəsizliyin nəzəri əsasları*. Bakı: Elm nəşriyyatı, 407 s.
8. Ağalarlı, D. (2020). Hibrid müharibələr – asimmetrik müharibələrin növü kimi. *Ordu.az.* Alındı: https://ordu.az/ru/news/173729/hibrid-muharibeler-%E2%80%93-asimmetrik-muharibelerin-novu-kimi
9. Milli.az. (2025). XXI əsrdə kibersuverenlik: Azərbaycan dövlətin rəqəmsal müdafiəsini necə qurur. *Milli.Az.* Alındı: https://news.milli.az/politics/1297451.html
10. Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (2022). *Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası.* Alındı: https://e-qanun.az/framework/50013
11. Adigözəlov, Ş. (2025, 23 iyul). Zəngəzur dəhlizi: iqtisadi inteqrasiya və regional imkanlar. *Xalq qəzeti*, (150). S.1,7. Alındı: https://xalqqazeti.az/az/siyaset/233587-zengezur-dehlizi-iqtisadi-inteqrasiya-regional
12. Hüseynov, B. (2020, 6 sentyabr). *Türkiyə bu gün Azərbaycanın hərbi sahədə ən mühüm tərəfdaşıdır*. Nizami Rayon İcra Hakimiyyəti Alındı: http://www.nizami-ih.gov.az/az/news/857.html
13. Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. (2023, 28 avqust). *Azərbaycan Respublikasının informasiya təhlükəsizliyi və kibertəhlükəsizliyə dair 2023–2027-ci illər üçün Strategiyası*. Alındı: https://e-qanun.az/framework/55045
14. Vikipediya. (ts.). *İkinci Qarabağ müharibəsi*. Vikipediya. Alındı: https://az.wikipedia.org/wiki/%C4%B0kinci_Qaraba%C4%9F_m%C3%BCharib%C9%99si
15. Azərbaycan Respublikası. (1995). *Azərbaycan Respublikasının Konstitusiyası.* Bakı. (müvafiq dəyişikliklərlə). Alındı: https://e-qanun.az/framework/897